**Rusiyadan idxal edilən dondurulmuş toyuq ətində aşkarlanan uyğunsuzluqlara dair məlumat**
**(19 iyun 2023)**

Tədbirlər çərçivəsində “Baku Food House” MMC tərəfindən Rusiya Federasiyasından idxal olunan “Stavropolskiy Broyler” MMC-nin istehsalı olan 20338 kq dondurulmuş toyuq hissələri məhsulunda Agentlik əməkdaşları tərəfindən götürülmüş nümunələrin müayinələri nəticəsində salmonella aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq, təhlükəli malların gömrük ərazisinin hüdudlarından kənarlaşdırılması və ya məhv edilməsi barədə qərar qəbul edilib. Verilmiş qərara əsasən, həmin istehsalçının məhsulu idxalına müvəqqəti qadağa qoyulub və idxalçı ölkənin aidiyyəti qurumuna müvafiq bildiriş göndərilib.